# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ RƏHBƏR VƏZİFƏLƏRDƏ ÇALIŞANLARIN DİAQNOSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

## ÇƏRÇİVƏ SƏNƏDİ
**(test imtahanı)**

**- 2025 -**

## MÜNDƏRİCAT

**Giriş** 3

**Diaqnostik qiymətləndirmə çərçivəsinin hüquqi bazası** 4

**Test imtahanı** 8

**Test imtahanına hazırlıq üçün tövsiyə olunan ədəbiyyat** 11

**Qiymətləndirmə cədvəli** 13

## GİRİŞ

Qabaqcıl təcrübələrin Azərbaycan təhsil sisteminə uyğunlaşdırılıb tətbiq edilməsi yerli məktəbəqədər təhsilin keyfiyyətinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Bu inkişaf prosesi məktəbəqədər təhsil müəssisəsinin rəhbərlərinin bilik və bacarıqlarının mütəmadi ölçülməsini və təkmilləşdirilməsini tələb edir. Belə ki, təhsil prosesinin fəal iştirakçısı olan məktəbəqədər təhsil müəssisəsinin rəhbəri keyfiyyətli təhsil və qayğının təmin edilməsində məsuliyyət daşıyır. Bundan çıxış edərək, rəhbər vəzifələrdə çalışanların səriştələrini (xüsusilə də pedaqoji lider kimi) yoxlamaq və onların inkişaf ehtiyaclarını müəyyənləşdirmək üçün xarici keyfiyyət təminatı sisteminin tərkib hissəsi olan diaqnostik qiymətləndirmə keçirilir.

Diaqnostik qiymətləndirmə prosesi kompleks yanaşma tələb edir və bunun üçün müxtəlif alətlərdən istifadə olunması tövsiyə edilir. Bu alətlərdən biri kimi çıxış edən **test imtahanının məqsədi** rəhbər vəzifələrdə çalışanların bilik və bacarıqlarını qiymətləndirmək və imtahan prosesində toplanan məlumatları ölçərək təhlil etməkdir.

Diaqnostik qiymətləndirmə çərçivəsi Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə yanaşı, həm də qabaqcıl beynəlxalq keyfiyyət meyarlarına əsaslanaraq hazırlanmışdır. Sənəd diaqnostik qiymətləndirmə çərçivəsinin hüquqi bazası, test imtahanı, test imtahanına hazırlıq üçün tövsiyə olunan ədəbiyyat və test imtahanının qiymətləndirmə cədvəlindən ibarətdir.

## DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ ÇƏRÇİVƏSİNİN HÜQUQİ BAZASI

"Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qeyd edildiyi kimi dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Bununla bağlı, kompetensiyaların inkişafını hədəfləyən "ömürboyu təhsil"ə xüsusi önəm verilir, təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılır.

Məktəbəqədər təhsil "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində milli prioritet dəyəri olan sahə kimi qiymətləndirilir və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda inkişaf siyasətinin mühüm əhəmiyyətə malik bir komponenti kimi qəbul edilir. Qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılmış bu sənəddə ölkə üzrə məktəbəqədər təhsilin əhatəlilik göstəricilərinin yaxşılaşdırılması ilə yanaşı, məktəbəqədər təhsilin məzmununun yenilənməsi, pedaqoji və idarəetmə heyətinin peşəkarlığının artırılması, məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması kimi tapşırıqlar da qarşıya qoyulmuş və burada kəmiyyət deyil, keyfiyyət önə çıxarılmışdır.

<table>
<tr><th colspan="4">MİLLİ PRİORİTET 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı</th></tr>
<tr><td colspan="4">MƏQSƏD 3.1. XXI əsrin tələblərinə uyğun təhsil</td></tr>
<tr><td colspan="4">FƏALİYYƏT İSTİQAMƏTİ: 3.1.1.<br>Erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması</td></tr>
<tr><td>Məktəbəqədər təhsil üzrə dövlət standartlarının və təhsil proqramının təkmilləşdirilməsi, məktəbəqədər təhsil sistemində çalışan pedaqoji və idarəetmə heyəti üçün ixtisasartırma təlimlərinin təşkil edilməsi</td><td>Məktəbəqədər təhsilin keyfiyyət təminatı sisteminin yaradılması və xarici keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi</td><td>Alternativ təhsil və maliyyələşmə modelləri (icmaəsaslı məktəbəqədər təhsil, valideyn–dövlət–özəl əməkdaşlığı və s.) əsasında əhatəliliyin artırılması</td><td>Qabaqcıl təcrübə əsasında məktəbəqədər təhsil üzrə pedaqoji və idarəetmə heyətinin sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi</td></tr>
</table>

Diaqnostik qiymətləndirmə çərçivəsi məqsəd 3.1.-in (XXI əsrin tələblərinə uyğun təhsil) fəaliyyət istiqamətlərini rəhbər tutmaqla bərabər, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda yer almış:

- maddə 4.0.10. "Məktəbəqədər təhsil müəssisələrinə elmi-metodik rəhbərliyi və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək";
- maddə 4.0.16. "Dövlət məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesini və idarəetməni təkmilləşdirmək, bu müəssisələri ixtisaslı pedaqoji işçilərlə ... təmin etmək" kimi dövlətin üzərinə düşən vəzifələrdən çıxış edərək hazırlanmışdır.

Diaqnostik qiymətləndirmə çərçivəsində rəhbər işçinin kompetensiyaları (peşəkar dəyərləri, bilik

və bacarıqları) Azərbaycan Respublikasının məktəbəqədər təhsil sahəsində mövcud olan normativ hüquqi sənədlərə əsasən müəyyənləşdirilir.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə əsasən, məktəbəqədər təhsil müəssisəsi müdirinin hüquq və vəzifələri aşağıdakılardan ibarətdir:

6.6.1. məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinə görə dövlət, cəmiyyət və təsisçi qarşısında məsuliyyət daşımaq;

6.6.2. məktəbəqədər təhsil müəssisəsi üzrə əmrlər, göstərişlər vermək, bütün dövlət, qeyri-dövlət, ictimai təşkilatlarda, müəssisələrdə və idarələrdə etibarnaməsiz hərəkət edərək, məktəbəqədər təhsil müəssisəsini təmsil etmək; ...

6.6.4. məktəbəqədər təhsil müəssisəsi ilə bağlı uşaqların ailələri, ictimai təşkilatlar və digər təhsil müəssisələri ilə qarşılıqlı əlaqəni həyata keçirmək;

6.6.5. məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti barədə təsisçiyə hesabat vermək;

6.6.6. daxili intizam qaydalarını təsdiq etmək.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 20.12.2017-ci il tarixli, 18-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası"nda məktəbəqədər təhsil müəssisəsinin müdiri vəzifəsinin əmək funksiyaları aşağıdakı kimi verilib:

- müəssisənin bütün fəaliyyətini idarə edir;

- məktəbəqədər təhsil müəssisəsinin illik fəaliyyət planını hazırlayır və həyata keçirilməsini təmin edir;

- təlim-tərbiyə işlərinin keyfiyyəti, müəssisənin uşaqlarla komplektləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti, təlim-tərbiyə sahəsində yüksək səmərəlilik əldə etmək məqsədilə pedaqoji kollektivin və başqa işçilərin fəaliyyətini elmi əsaslar üzərində qurur;

- proqram materiallarının yerinə yetirilməsinə nəzarət edir;

- uşaqların həyatının mühafizəsi və sağlamlığının möhkəmləndirilməsi, rasional qidalanmanın təşkili, sanitariya-gigiyena vəziyyəti üçün məsuliyyət daşıyır;

- işçilərə həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiqi məsələlərini həll edir, pedaqoji, tibbi və xidməti heyətin işinə rəhbərlik və nəzarəti həyata keçirir;

- işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün şərait yaradır;

- pedaqoji şuraya rəhbərlik edir, valideynlər arasında pedaqoji və gigiyena biliklərinin təbliğini təşkil edir;

- valideyn komitəsinin işini istiqamətləndirir, məktəblə və müvafiq təşkilatlarla əlaqə yaradır;

- avadanlıqların saxlanmasına, eləcə də təhlükəsizlik texnikası qaydalarına düzgün əməl olunmasına nəzarət edir;

- aidiyyəti təşkilatlar qarşısında müəssisənin işi haqqında hesabat verir;

- işçilərinin profilaktik tibbi müayinədən keçməsini təmin edir;

- əmək qanunvericiliyinin tələblərinin yerinə yetirilməsinə nail olur, daxili intizam qaydalarını təsdiq edir;

- işçilərin vəzifələrini müəyyənləşdirir, ştat cədvəlində metodist nəzərdə tutulmadığı halda onun vəzifələrini yerinə yetirir;

- məktəbəqədər təhsil müəssisəsinin uşaqların ailələri, ictimai təşkilatlar və digər təhsil müəssisələri ilə qarşılıqlı əlaqəsini təmin edir.

Qeyd edilənlərə əsaslanaraq, idarəetmə səviyyəsi və peşə yararlılığının göstəriciləri üçün aşağıdakı sahələr müəyyənləşdirilmişdir:




Qrafikdə göründüyü kimi bu sahələr bir-biri ilə əlaqəlidir, biri-birinə təsir edir, biri digərini hərəkətə gətirir və bu proses davamlı olaraq təkrarlanır.

Qiymətləndirməni optimallaşdırmaq məqsədilə həmin sahələr aşağıdakı kimi qruplaşdırılmışdır:

<table>
<tr><th colspan="2">1. Rifah</th></tr>
<tr><td colspan="2">Rəhbərin aşağıdakı bilik və bacarıqları nəzərdə tutulur:<br>1. məktəbəqədər təhsil müəssisəsindəki uşaqların fərdi qayğı rutinləri, qidalanması, hərtərəfli inkişafı və sağlamlığı üçün fiziki və psixo-emosional cəhətdən təhlükəsiz olan pozitiv mühit yaratması;<br>2. məktəbəqədər təhsil müəssisəsindəki işçilərin psixoloji sağlamlığı dəstəkləyən resurslara çıxışını təmin etməsi, səmərəli iş mühiti yaratması.</td></tr>
<tr><td>1.1.Uşaqlara hərtərəfli qayğı göstərilməsi, onların fiziki və psixi zorakılığın bütün formalarından müdafiəsi və hüquqlarının qorunmasına nəzarət</td><td>2.1.Səmərəli iş mühitinin formalaşdırılması</td></tr>
</table>

| 2. Pedaqoji liderlik | | |
|---|---|---|
| Rəhbərin metodik işin idarəedilməsi və peşəkar inkişaf üzrə bilik və bacarıqları nəzərdə tutulur. | | |
| Metodik işin təşkili | Təlim mühitinin və təhsil proqramının uşaqların inkişaf ehtiyaclarına və maraqlarına cavab verməsinin təmin edilməsi məqsədilə keyfiyyətə nəzarət və daxili monitorinq | Pedaqoji kollektivin və özünün peşəkar inkişafının planlaşdırılması |

| 3. İdarəetmə | | |
|---|---|---|
| Rəhbərin həm müəssisənin inkişaf siyasəti, həm də təsərrüfat fəaliyyəti istiqamətləri üzrə menecerlik bacarıqları nəzərdə tutulur. | | |
| Müəssisənin işinin qanunvericiliyə uyğun idarə edilməsi | Təsərrüfat fəaliyyəti | Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət istiqamətlərinin planlaşdırılması və hesabatlılıq |

| 4. Pedaqoji etika və əməkdaşlıq | |
|---|---|
| Müəssisənin siması kimi rəhbərin pedaqoji kollektiv, valideynlər, tərəfdaş (təhsil ilə əlaqədar dövlət və özəl təşkilatlar) qurumlar və ictimaiyyətlə kommunikasiya və əməkdaşlıq bacarıqları nəzərdə tutulur. | |
| İctimai etimadın formalaşdırılması üzrə iş | Məktəbəqədər təhsil müəssisəsinin uşaqların ailələri, ictimai təşkilatlar və digər təhsil müəssisələri ilə qarşılıqlı əlaqəsinin təmin edilməsi |

## TEST İMTAHANI

| № | Sahələr | Mövzular |
|---|---|---|
| 1. | **Rifah** | ● Uşaqlara hərtərəfli qayğı göstərilməsi, onların fiziki və psixi zorakılığın bütün formalarından müdafiəsi və hüquqlarının qorunmasına nəzarət:<br><br>- uşaqların fərdi qayğı rutinləri və qidalanması;<br>- uşaq hüquqları;<br>- fiziki, psixoloji və sosial şiddət (fiziki zorakılıq, sosial qısnama və s.);<br><br>● Səmərəli iş mühitinin formalaşdırılması:<br><br>- əks-əlaqənin qurulması və konfliktlərin idarə olunması;<br>- tərbiyəçi-müəllimlərin hüquq və vəzifələri;<br>- işçilərin motivasiyası və komanda quruculuğu. |
| 2. | **Pedaqoji liderlik** | ● Metodik işin təşkili:<br>- uşaq inkişafı və erkən yaş dövrü üzrə psixo-pedaqoji nəzəriyyələr;<br>- uşaqyönümlülük və şəxsiyyətyönümlülük prinsipləri;<br>- uşaqyönümlü, oyunəsaslı, inklüziv təhsil yanaşmaları;<br>- məktəbəqədər təhsil proqramının (kurikulumun) tətbiqində dəstək;<br>- uşaqların inkişaf sahələrinə və məktəbəqədər təhsil standartlarına uyğun təlim fəaliyyətlərinin təşkili, planlaşdırılması (perspektiv və cari planlaşdırma) və dəyərləndirilməsində dəstək;<br>- məşğələ və məşğələdənkənar fəaliyyətlərin təşkilində metodik dəstək;<br><br>● Təlim mühitinin və təhsil proqramının uşaqların inkişaf ehtiyaclarına və maraqlarına cavab verməsinin təmin edilməsi məqsədilə keyfiyyətə nəzarət və daxili monitorinq:<br><br>- Məşğələ zamanı təlim prosesinin müşahidəsi:<br>a) oyunlar;<br>b) iş formaları və üsulları;<br>c) dəyərləndirmənin aparılması;<br>d) nümayişetdirici materialların (şəkillər, əşya, təqvim, poster və s.) istifadəsi;<br>e) uşaqların təşəbbüsünə və seçiminə dəstək; |

| | | |
|---|---|---|
| | | - Məşğələdənkənar fəaliyyətlərin müşahidəsi:<br>a) fəaliyyətlərarası keçidlər;<br>b) sərbəst fəaliyyət;<br>c) oyunlar;<br>d) gəzinti;<br>e) uşaqların özünüifadə etməsinə dəstək.<br><br>- Fəaliyyət mərkəzlərinin təşkili və səmərəliliyinin təmin olunmasına dəstək;<br>- Məşğələ və digər fəaliyyətlər arasında inteqrasiyanın qurulması.<br><br>● Pedaqoji kollektivin və özünün peşəkar inkişafının planlaşdırılması:<br>- Refleksiya, özünütəhsil, öz hüquqlarını tanıması və qanuni yollarla müdafiə etmə bacarıqları |

| | | |
|---|---|---|
| **3.** | **İdarəetmə** | ● Müəssisənin işinin qanunvericiliyə uyğun idarə edilməsi:<br><br>- “Təhsil haqqında” və “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının qanunları;<br>- Azərbaycan Respublikasının Əmək Məcəlləsi;<br>- əməyin mühafizəsi qaydaları;<br>- məktəbəqədər təhsil müəssisəsinin sənədləri (əmr kitabı, fəaliyyət planı, pedaqoji şuranın protokol kitabları, tibb otağının və tərbiyəçi-müəllimlərin və uşaqların qiymətləndirilməsini əks etdirən sənədlərə nəzarət) ilə işin təşkili;<br>- müəssisənin daxili əmək intizam qaydaları.<br><br>● Təsərrüfat fəaliyyəti:<br><br>- məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasının düzgün təşkili və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri;<br>- təhlükəsizlik və yanğından mühafizənin norma və qaydalarının nəzəri əsasları və praktiki tətbiqi yolları;<br>- sanitariya-gigiyena qaydaları;<br>- daxili məkanın təşkili (müəssisənin ərazisinin və avadanlıqların səmərəli istifadəsi).<br><br>● Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət istiqamətlərinin planlaşdırılması:<br><br>- MTM-in fəaliyyətinin uzunmüddətli və qısamüddətli planlaşdırılması. |

| | | |
|---|---|---|
| 4. | **Pedaqoji etika və əməkdaşlıq** | ● Təhsilverənlərin etik davranış qaydalarının təmin edilməsi;<br>● İctimai etimadın formalaşdırılması üzrə iş:<br>- məktəbəqədər təhsil müəssisəsinin və tərəfdaşlarının (valideynlər, əməkdaşlıq etdiyi qurumlar və s.) məlumatlarının təhlükəsizliyinin qorunması;<br>● Məktəbəqədər təhsil müəssisəsinin uşaqların ailələri, ictimai təşkilatlar və digər təhsil müəssisələri ilə qarşılıqlı əlaqəsinin təmin edilməsi və hüquqları haqqında məlumatlılıq. |

## TEST İMTAHANINA HAZIRLIQ ÜÇÜN TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 19 iyun 2009-cu il.
   - Birinci fəsil. Ümumi müddəalar (maddə 3-7)
   - İkinci fəsil. Azərbaycan Respublikasının təhsil sistemi (maddə 11, 17-19, 27-28)
   - Üçüncü fəsil. Təhsil sisteminin idarə olunması, təhsil subyektlərinin hüquqları, vəzifələri və sosial müdafiəsi (maddə 30-34, 36-1, 36-2)
   - Dördüncü fəsil. Təhsilin iqtisadiyyatı (maddə 38)

https://e-qanun.az/framework/18343

2. “Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

https://e-qanun.az/framework/24394

3. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017-ci il.

https://e-qanun.az/framework/35791

4. “Sanitariya-epidemioloji salamatlıq” haqqında 1992-ci il 10 noyabr tarixli Azərbaycan Respublikasının Qanunu
   - Altıncı fəsil. Azərbaycan Respublikasının sanitariya qanunvericiliyini pozmağa görə məsuliyyət (39-cu maddənin on altıncı, on doqquzuncu-iyirmi dördüncü və iyirmi altıncı abzasları)

https://e-qanun.az/framework/7916

5. “Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında” 1994-cü il 9 mart tarixli 103 saylı Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
   - 2 nömrəli əlavə. Uşaq bağçalarında, uşaq evlərində və məktəbəqədər uşaq sanatoriyalarında uşaqlar üçün qida normaları.
   - 3 nömrəli əlavə. Körpələr evində, bağça-körpələr evində və uşaq evlərində uşaqlar üçün qida normaları.

https://e-qanun.az/framework/13549

6. “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 2020-ci il 30 aprel tarixli 157 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

https://e-qanun.az/framework/44991

7. “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nin təsdiq edilməsi haqqında 2012-ci il 3 avqust tarixli 171 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
   - Birinci fəsil. Təhsil müəssisələrinin tikintisinə dair vahid normalar (maddə 1)
   - İkinci fəsil. Təhsil müəssisələrinin maddi-texniki təchizatına dair vahid normalar (maddə 1)
   - Üçüncü fəsil. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri (maddə 1)
   - Dördüncü fəsil. Təhsil müəssisələrində şagird yerləri ilə təminat normativləri (maddə 1)

https://e-qanun.az/framework/24095

8. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. 1 fevral 1999-cu il.
- Birinci fəsil. Əsas müddəalar (maddə 1-2)
- Yeddinci fəsil. Əmək müqaviləsinin bağlanması əsasları və qaydası (maddə 42-53)
- Onuncu fəsil. Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları (maddə 68-76)
- On altıncı fəsil. Məzuniyyət hüququ və onun təmin edilməsi (maddə 110-113, 118)
- On doqquzuncu fəsil. Sosial məzuniyyətlər (maddə 125-127)
- İyirminci fəsil. Ödənişsiz məzuniyyətlər (maddə 128-130)
- İyirmi doqquzuncu fəsil. Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi qaydaları (maddə 186-190)

https://e-qanun.az/framework/46943

9. Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında 1996-cı il 29 may tarixli 61 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı
https://e-qanun.az/framework/38064

10. Cəfərova L. Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab. 2019 (254-cü səhifə istisna olmaqla).

11. Müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi xidməti işinin təşkilinə dair tövsiyələr. 16 fevral 1999-cu il.
https://e-qanun.az/framework/11166

12. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası (2017)
https://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.pdf

13. Məktəbəqədər təhsil proqramı (kurikulum) (2022)
https://edu.gov.az/uploads/mektebeqeder/sened/2023/M%C9%99kt%C9%99b%C9%99q%C9%99d%C9%99r%20t%C9%99hsil%20proqram%C4%B1%20%28kurikulum%29.pdf

14. Məktəbəqədər təhsil proqramının (kurikulumun) tətbiqinə dair metodiki tövsiyələr
https://arti.edu.az/wp-content/uploads/2023/03/M%C6%8FKT%C6%8FB%C6%8FQ%C6%8FD%C6%8FR-T%C6%8FHSIL-PROQRAMININ-KURIKULUMUN-T%C6%8FTBIQIN%C6%8F-DAIR-METODIK-TOVSIY%C6%8FL%C6%8FR.pdf

15. Təhsilverənlərin etik davranış qaydaları (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 2024-cü il 15 may tarixli, KQ-07 nömrəli Qərarı)
https://e-qanun.az/framework/56915

16. Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil (2021)
https://drive.google.com/file/d/1_oE-CjMP-2u5N4i9lozTXbyhquPATGQE/view

17. Yanğından mühafizənin norma və qaydaları. 25 may 2001-ci il.
https://e-qanun.az/framework/10933

***Qeyd:*** *Əgər tövsiyə olunan ədəbiyyatdakı məlumatlar burada göstərilən rəsmi sənədlərdəki məlumatlarla üst-üstə düşmürsə, rəsmi sənədlərdəki məlumatlar etibarlı mənbə sayılmalıdır.*

## QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

Diaqnostik qiymətləndirmə zamanı rəhbər işçinin kompetensiya sahələri üzrə bilik və bacarıqlarının təməl səviyyədə olması tələbi qiymətləndirmə etalonu kimi müəyyən edilir. Bu səbəbdən, imtahan zamanı asan və orta çətinlik dərəcəli testlərdən istifadə olunur.
İmtahan mərhələsinin sualları aşağıdakı meyarlarda əks olunur. Sahələrə görə müəyyən edilmiş mövzular üzrə fakt, anlayış, prinsip (qaydalar, xassələr, qanunlar) və situasiya tipli sualların hazırlanması nəzərdə tutulur. Cədvəldə imtahan suallarının çətinlik səviyyələrini müəyyənləşdirmək üçün Blum taksonomiyasının mərhələləri idrak səviyyələrinin yaxınlığına görə qruplaşdırılaraq ardıcıllıqla verilmiş, sualların say aralıqları göstərilmişdir. Həmin rəqəmlər imtahana daxil ediləcək sualların minimum və maksimum sayını göstərir. Məsələn, əgər say aralığı "2-3" kimi göstərilibsə, bu, müvafiq sual sayının minimum 2, maksimum 3 olacağını bildirir.

| **Pedaqoji liderlik**<br>Ümumi sual sayı: 25 | | |
|---|---|---|
| Xatırlamaq və anlamaq<br>**asan: 4-6 orta: 5-8 ümumi: 12** | Tətbiq etmək və təhlil etmək<br>**asan: 5-7 orta: 6-8 ümumi: 13** | Dəyərləndirmək və yaratmaq<br>**asan: 0-2 orta: 0-1 ümumi: 0-2** |

| **İdarəetmə**<br>Ümumi sual sayı: 15 | | |
|---|---|---|
| Xatırlamaq və anlamaq<br>**asan: 4-6 orta: 4-6 ümumi: 10** | Tətbiq etmək və təhlil etmək<br>**asan: 2-3 orta: 2-3 ümumi: 5** | Dəyərləndirmək və yaratmaq<br>**asan: 0-1 orta: 0-1 ümumi: 0-1** |

| **Rifah**<br>Ümumi sual sayı: 10 | | |
|---|---|---|
| Xatırlamaq və anlamaq<br>**asan: 2-3 orta: 2-3 ümumi: 5** | Tətbiq etmək və təhlil etmək<br>**asan: 2-3 orta: 2-3 ümumi: 5** | Dəyərləndirmək və yaratmaq<br>**asan: 0-1 orta: 0-1 ümumi: 0-1** |

| **Pedaqoji etika və əməkdaşlıq**<br>Ümumi sual sayı: 10 | | |
|---|---|---|
| Xatırlamaq və anlamaq<br>**asan: 2-3 orta: 2-3 ümumi: 5** | Tətbiq etmək və təhlil etmək<br>**asan: 2-3 orta: 2-3 ümumi: 5** | Dəyərləndirmək və yaratmaq<br>**asan: 0-1 orta: 0-1 ümumi: 0-1** |

***Qeyd:*** *Test imtahanında iştirakçılara 60 sual təqdim olunur. Hər imtahan sessiyasındakı sualların sayı cədvəldəki xanalarda qeyd olunan aralıqlara uyğun olaraq dəyişə bilər.*

*Qiymətləndirmə cədvəlinin əhəmiyyəti:*

- Testin məzmununun validliyini (ölçülməsi əvvəlcədən nəzərdə tutulmayan məsələlər ölçülmür) təmin edir;
- Müxtəlif qruplar üçün oxşar imtahanların hazırlanmasına imkan yaradır;
- Sualların tərtibolunması zamanı məzmun sahələri, mövzu və bacarıqlar arasında balans qorunur;
- Test tərtib edənlər, imtahanda iştirak edənlər və digər maraqlı tərəflər üçün bu məzmun sahələri üzrə fəaliyyət səviyyələri (Blum taksonomiyası) arasındakı fərqlilik göstərilir.